SPORTSMAN

№ 155 / 2025 / 10 manat www.sportsman.az Jurnal 2004-cü ildən nəşr olunur

# 2024-CÜ İLİN İDMAN YEKUNLARI









Global Human Resource Solutions

*Global Solutions for Global Challenges*

# XİDMƏTLƏRİMİZ

- ✓Yüksək kvalifikasiyalı kadrların seçilməsi
- ✓Fəaliyyətin qiymətləndirilməsi
- ✓Təlim və inkişaf
- ✓İR Autsorsinq və Autstaffinq
- ✓İR prosedurların və qaydaların hazırlanması
- ✓Layihələrin idarəolunması
- ✓Əməyin ödənilməsi və mükafatlandırma
- ✓Miqrasiya məsələri və işgüzar səfərlərin təşkili



+994 55 201 91 61

info@globalhrs.org

www.globalhrs.org






SUPER KUPON 30% ENDİRİM

(+994) 12 525 41 52
(+994) 55 208 97 82

Nərimanov rayonu,
Aşıq Molla Cümə 46b

www.offissa.com

salon@offissa.com

offissa.dizayn

Offissa Dizayn

Offissa Dizayn


OCAQ
SPORT KLUBU
AİLƏNİZİN İDMAN OCAĞI
Övladınızın sağlam, fəal və eyni zamanda güclü olmasını istəyirsiniz? O zaman onları gimnastika məşqlərinə yazdırın. İdman məşqləri üçün rahatlıqla etibar edəcəyiniz məkan isə «**Ocaq Sport**» Klubudur.


NAVIGARE
50%
ENDİRİM
Azərbaycan, Bakı, AZ 1069
Teymur Əliyev küçəsi, 50
Tel.: (+944 12) 449 53 92
Mob.: (+944 50) 782 50 57

ABB

Azərbaycan Beynəlxalq Bankı

*Müasir, Faydalı, Universal*

# BU SAYIMIZDA




2024-CÜ İLİN İDMAN YEKUNLARI

səh.6



FƏRİD QAYIBOV: "ELƏ BİR ÖLKƏ TANIMIRAM Kİ, DÖVLƏT BAŞÇISI İDMANÇILARI MÜKAFATLANDIRSIN"

səh.20



LİONEL MESSİ AZƏRBAYCANDA!

səh.24



BEYNƏLXALQ DƏRƏCƏLİ HAKİM XALÇA İLƏ VİDALAŞDI

səh.28



"PREZİDENT KUBOKU" UĞRUNDA MARAFON

səh.32




AZƏRBAYCAN AĞIRLIQQALDIRMA FEDERASİYASI BƏHREYNDƏ

səh.36



FİRDOVSİ UMUDOV: "AKADEMİYANIN AZƏRBAYCANDA QURULMASI ÖLKƏ İDMANI ÜÇÜN BÖYÜK TƏCRÜBƏ OLACAQ"

səh.38



HİTOŞİ KASUYADAN BAKIDA SEMİNAR

səh.40



"TƏMİZ QƏLBƏ: OLİMPİYA İLİNƏ YENİDƏN BAXIŞ"

səh.42



"Kişi sözü"nün "Niyaz"ı

səh.44



**SPORTSMAN**

**Baş redaktor:**
Rəşad Qəmərşahoğlu
*əməkdar jurnalist*
*idman ustası*

Ünvan: Bakı, Fətəli Xan Xoyski 10,
Tofiq Bəhramov adına
Respublika Stadionu
Telefon: 012 511 23 45
e-mail: sportsmagazine@mail.ru
www.sportsman.az

Jurnal Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. №1164

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Reklamlarda gedən mətnlərə görə jurnal məsuliyyət daşımır.

Jurnalda "AZƏRTAC" DİA-nın və İdman.biz saytının materiallarından istifadə edilib.


***Üz səhifədə:***

Prezident İlham Əliyev
Aydın Məmmədov
Sadıq Sadıqov
Natiq Bağırov
Faiq Qarayev




***Dekabrın 24-də 2024-cü ilin idman yekunlarına həsr olunan mərasim keçirilib.***

***Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev mərasimdə iştirak edib:***

-Əziz idmançılar, əziz dostlar.

İlk növbədə, Azərbaycan idmançılarını bu il əldə edilmiş uğurlar münasibətilə təbrik etmək istəyirəm. 2024-cü il də Azərbaycan idmanı üçün uğurlu olmuşdur. Azərbaycan idmançıları beynəlxalq yarışlarda ölkəmizi ləyaqətlə təmsil etmişlər, 1700-ə yaxın medal qazanılmışdır. Bu, onu göstərir ki, idmanımız inkişaf edir, yeni nəsil idmançılar yetişir və beləliklə, Azərbaycan idman dövləti kimi öz gücünü müxtəlif beynəlxalq yarışlarda təsdiqləyir.

Əlbəttə ki, ilin ən böyük yarışı Yay Olimpiya Oyunları idi və burada da biz tarixi nəticə əldə



etmişik. Azərbaycan müstəqil ölkə kimi 1996-cı ildən Olimpiya Oyunlarında iştirak edir və bu dəfə ən yüksək yerə layiq görülmüşdür, komanda hesabında Azərbaycan 30-cu yerdə qərarlaşmışdır. Bu, ən yüksək nəticədir. Bütövlükdə iki yüzdən çox milli komanda Olimpiya Oyunlarında iştirak edirdi. Onların arasında 30-cu olmaq çox böyük nailiyyətdir.

Onu da deməliyəm ki, müsəlman ölkələri arasında Azərbaycan üçüncü yerdə idi. Nəzərə alsaq ki, dünyada 60-a yaxın müsəlman ölkəsi var, bu da böyük və tarixi nailiyyətdir. Komandamız ikisi qızıl, ikisi gümüş, üçü bürünc olmaqla yeddi medal qazanaraq ölkəmizin idman şöh-







rətini bir daha yüksəklərə qaldırmışdır.

Təbii ki, bu gözəl nəticədən sonra növbəti yarışlarda da idmançılarımızdan qələbələr, uğurlar gözləyirik. İdmançılarımız Azərbaycan xalqını öz qələbələri ilə daim sevindirirlər. Əlbəttə ki, gələn il və ondan sonrakı illərdə idmanın inkişafı üçün nə lazımdırsa, o da ediləcək. Çünki Azərbaycan dövlətinin siyasəti bu istiqamətdə çox açıqdır, birmənalıdır və uzun illər ərzində aparılır.

İdman cəmiyyətimizin ayrılmaz hissəsidir. İdmanın və idman qələbələrinin ictimai məkanda çox böyük rolu var. Xüsusilə gənc nəslin yetişdirilməsi, vətənpərvərlik hisslərinin gənc nəslə aşılanması üçün idman amili çox böyük məna daşıyır. Nəzərə alsaq ki, bu Yay Olimpiya Oyunlarında Azərbaycan müzəffər ölkə kimi, qalib ölkə kimi iştirak edirdi, idmançılarımız isə müzəffər xalqın nümayəndələri kimi iştirak edirdilər. Əlbəttə ki, bu vətənpərvərlik amili daim diqqətdə olmalıdır.

Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsində idman









nə qədər vacibdirsə, bir o qədər də hərbi hazırlıq və fiziki hazırlıq vacibdir. Fiziki güc mənəvi saflığa da yol açır və şadam ki, bizim idmançılarımızın mütləq əksəriyyəti idmanda da, məişətdə də, cəmiyyətdə də nümunədirlər, örnəkdirlər. Onların davranışı, cəmiyyətdəki fəaliyyəti məni və əminəm ki, bütün xalqımızı sevindirir. Azərbaycan gənci məhz belə olmalıdır - vətənpərvər, fiziki cəhətdən güclü, mənəvi cəhətdən saf, öz xalqına, dövlətinə bağlı, heç bir kənar təsirə boyun əyməyən və ləyaqətli Azərbaycan gənci. Yenə də deyirəm, əlbəttə ki, 1996-cı ildən bu yana bütün Olimpiya Oyunlarında iştirakımız, o cümlədən bu məqsədi daşıyırdı. Biz özümüzə də, dünyaya da sübut etməli idik və edirdik ki, biz güclü dövlətik. Hər dövlətin gücü isə onun xalqının gücünə söykənir.

Əminəm ki, bu dəfə idmançılarımız qalib ölkənin nümayəndələri kimi idman arenalarına, döşəklərə, idman meydançalarına tamamilə fərqli bir ovqatla çıxırdılar. Bu gözəl nəticə dövlətimizin gücünü bir daha göstərdi.

Bizim bundan sonrakı fəaliy-








yətimiz təbii ki, idmanın inkişafı ilə bağlı olacaq. Çünki bütün lazımi qərarlar verilib, bütün müvafiq strukturlar, federasiyalar, klublar, idman cəmiyyətləri, Olimpiya Komitəsi, nazirlik vahid strategiya əsasında fəaliyyət göstərirlər. Federasiyalarda gücləndirmə işləri aparılmışdır. Ümid edirəm ki, bizim həm ənənəvi medal gətirən idman növlərində, həm də bu günə qədər o qədər də inkişaf etməyən idman növlərində növbəti irəliləyiş olacaqdır. Uzun illər bütün bölgələrdə idmanla məşğul olmaq üçün dövlət öz fəaliyyətini aparıb. Hazırda bizim bölgələrimizdə 44 Olimpiya İdman Kompleksi fəaliyyət göstərir və bu idman komplekslərinin bundan sonra da inşası nəzərdə tutulur, müxtəlif bölgələrdə, o cümlədən Qarabağ bölgəsində. Bakı şəhərində ən müasir idman infrastrukturumuz vardır. Biz hələ təxminən 10 il bundan əvvəl Bakıda mötəbər Avropa Oyunlarını keçirmişdik. Ondan sonra İslam Həmrəylik Oyunlarını keçirmişdik və keçən ay Bakıda COP29 beynəlxalq iqlim konfransı da Olimpiya Stadionunun içində və onun ətrafında keçiril-








mişdir. Yəni, burada da vaxtilə inşa etdiyimiz idman obyektinin - Olimpiya Stadionunun böyük rolu olmuşdu. Çünki əgər vaxtilə biz bunu etməsəydik, bu boyda, bu miqyasda beynəlxalq tədbiri keçirə bilməzdik - 197 ölkə, 76 min qeydiyyatdan keçmiş iştirakçı təmsil olunurdu və qonaqların məmnunluğu xüsusi qeyd edilirdi. Cəmi 10 şikayət var idi, onlar da tezliklə öz həllini tapdı.

Bölgələrdə isə dediyim kimi, bundan sonra da bu işlər aparılacaq. O ki qaldı, azad edilmiş ərazilərə, siz yaxşı bilirsiniz ki, o ərazilərdə infrastruktur layihələri ilə yanaşı, keçmiş köçkünlərin yaşayışı üçün inşa edilən evlərlə yanaşı, idman infrastrukturu da yaradılır. Bəziləri hesab edə bilər ki, bu, bir az tezdir. Amma mən hesab edirəm ki, bu, mütləq olmalıdır. Çünki bu idman obyektlərinin həm rəmzi mənası, həm də funksional tərəfi var. Məsələn, İmarət stadionunun inşa edilməsi - bunun çox böyük rəmzi mənası var. İndi Ağdam şəhərində yeni, bütün beynəlxalq standartlara cavab verən stadion inşa edilir. Füzuli şəhərində Olimpiya İdman Kompleksinin təməli qoyu-








lub. Suqovuşan və Köndələnçay su anbarlarında artıq beynəlxalq avarçəkmə yarışları keçirilir. Şuşa şəhərində bir neçə idman yarışı keçirilmişdir. Xankəndi şəhərindəki stadion, - hansı ki, Azərbaycan büdcəsi hesabına hələ keçən əsrin 50-ci illərində inşa edilmişdir, - əsaslı şəkildə təmir edilir, demək olar ki, yenidən qurulur. Düz bir il bundan əvvəl Xankəndi stadionunda biz hamımız tarixi futbol yarışını izləmişik. Amma bu stadion da bütün beynəlxalq standartlara cavab verəcək və bu stadionun yenidən qurulması prosesi gələn il başa çatmalıdır. Azad edilmiş ərazilərimizdə digər idman qurğularının tikintisi nəzərdə tutulur və bütün bu işləri biz ardıcıllıqla edəcəyik.

Gələn il Azərbaycan növbəti böyük idman yarışına ev sahibliyi edəcək, bu da MDB Oyunlarıdır. Üçüncü MDB Oyunları Azərbaycanda keçiriləcək. Bunun üçün 14 şəhər seçilibdir və əsas oyunlar Gəncə şəhərində keçiriləcək. Gəncə şəhəri MDB Oyunlarının mərkəzi olacaq. Gəncədə yeni stadion inşa edilir və Oyunlara qədər istismara








verilməlidir. Eyni zamanda, bir neçə ay bundan əvvəl Gəncədə ölkəmizin ən böyük Olimpiya İdman Kompleksi açılmışdır. Hətta Bakı şəhərində bu boyda və bu qədər funksional standartlara cavab verən Olimpiya Kompleksi olmamışdır. Üçüncü MDB Oyunlarında 7 min idmançının iştirakı gözlənilir. Əgər biz 2015-ci ilin Avropa Oyunları ilə müqayisə etsək, o vaxt təqribən 5000-5500 iştirakçı var idi.

Gəncə şəhərində isə 7000 iştirakçını, onların komandalarını, heyətlərini qəbul etmək üçün əlbəttə ki, şərait yaradılmalıdır və müvafiq göstərişlər verildi. Gələn ildən başlayaraq Gəncə şəhərində çox böyük təmir-bərpa işləri aparılacaq. Həm şəhər infrastrukturu yenilənəcək, şəhər nəqliyyatı tamamilə yenilənəcək, tarixi binaların bərpası və digər infrastruktur layihələrimiz icra ediləcək ki, bizim qədim şəhərimiz olan, Nizami yurdu olan Gəncə bütün MDB məkanına və daha geniş coğrafiyaya öz gözəlliyini, eyni zamanda, tarixi simasını və müasirliyini təqdim etsin. Əlbəttə ki, biz təbii olaraq bu Oyunlara da hazırlaşırıq.









Əminəm ki, bu Oyunların ev sahibi kimi Azərbaycan idmançıları, gənc idmançılar yaxşı nəticələr göstərəcəklər.

Biz ilin sonunda, ya da ki, hər ilin əvvəlində ənənəvi olaraq idmançılarımızı təltif edirik - dövlət təltifləri ilə, mənzillərlə. Bu proses artıq 27 ildir ki, davam edir. Çünki mən Milli Olimpiya Komitəsinin Prezidenti vəzifəsinə seçiləndən sonra çox yaxşı gördüm ki, əgər idmançılara dövlət qayğısı göstərilməsə, idman inkişaf edə bilməz və idmanın inkişafının bir çox amilləri Azərbaycanda vəhdət təşkil edir, ilk növbədə, dövlət dəstəyi. Bütün təltiflər tamamilə əsaslıdır. Həm idmançılar, həm də idman ictimaiyyətinin nümayəndələri, eyni zamanda, məşqçilər və digər idman mütəxəssisləri dövlət tərəfindən layiqincə qiymətləndirilir və bu da ədalətlidir.

Hər yerdə ədalət olmalıdır - beynəlxalq münasibətlərdə, ailədə, hər bir ölkədə, hər bir cəmiyyətdə. Biz buna çalışırıq. Biz tarixi ədaləti, ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etmişik və bununla qürur duyuruq. Əminəm ki, bu şanlı Qələ-









bəmiz hər bir Azərbaycan gənci üçün əlavə ruhlandırma amili olacaq. Biz döyüş meydanındakı Zəfərimizə idman qələbələrini də əlavə etdik və bu, əlbəttə ki, ölkəmizin beynəlxalq nüfuzunu daha da artırır. Çünki idmanın inkişafı hər bir ölkənin ümumi inkişafının nümayişidir, onu əks etdirir. Azərbaycan güclü dövlətdir, öz gücünə əsaslanan, öz yolu ilə gedən, heç kimin qarşısında heç bir öhdəliyi olmayan, heç kimin qabağında baş əyməyən, ləyaqətlə, vicdanla irəliyə gedən bir ölkədir və bu, bizim böyük sərvətimizdir.

Bu gün dünyada gedən proseslər göz qabağındadır. Qanlı toqquşmalar, müharibələr, münaqişələr, bəzi ölkələrin digər ölkələrin işlərinə kobudcasına qarışması, vəziyyətin gərginləşməsi - bütün bunları biz Azərbaycanda görmürük və görməyəcəyik. Çünki xalq-iqtidar birliyi, cəmiyyətdəki həmrəylik, vahid siyasi baxışlarımız, təbii ki, bizim tarixi Zəfərimiz və bir çox digər amillər bizi bu çətinliklərdən, çağırışlardan sığortalayır. Artıq 30 ilə yaxındır ki, Azərbaycan sabitlik şəraitində yaşayır və əminəm









ki, bundan sonra əbədi sabitlik şəraitində yaşayacaq.

O ki qaldı, Qarabağ və Şərqi Zəngəzur bölgələrinə, mən bilirəm ki, bizim idmançılarımız müntəzəm olaraq o bölgələrə səfərlər edirlər. Artıq orada 10 min insan yerləşib. Onların böyük hissəsi uşaqlardır, gənclərdir. O yerləri heç vaxt görməyən uşaqlar, gənclər böyük həvəslə oraya qayıdırlar. Əlbəttə ki, Azərbaycanın görkəmli idmançılarının azad edilmiş torpaqlara müntəzəm səfərləri gənclər üçün də, uşaqlar üçün də böyük hadisə olacaq. Ona görə hesab edirəm ki, idman yarışları öz yerində, amma, eyni zamanda, indi müxtəlif tədbirlər çərçivəsində Azərbaycan idmançıları, cəmiyyətimizin digər tanınmış simaları, ziyalılar o bölgələrə nə qədər çox səfər etsələr, o qədər də yaxşı olacaq, həm onlar üçün, həm orada yaşayanlar üçün. Çünki orada həyat yenidən, sıfırdan qurulur. Bizim icra etdiyimiz layihələrin dünyada misli-bərabəri yoxdur və bəlkə də olmayacaq. Böyük coğrafiyada, 15-16 min kvadratkilometr ərazidə, - hansı ki, Ermənistan onu tamamilə yerlə-yeksan edib, - yeni həyat qurulur, özü də müasir, gözəl, rahat. Ona görə mənim idmançılara, idman ictimaiyyətinin nümayəndələrinə tövsiyəm odur ki, o bölgələrə və bütövlükdə digər bölgələrə də tez-tez getsinlər, orada həm görüşlər keçirsinlər, həm də ki, gənc idman istedadlarını seçsinlər. Çünki seleksiya işi, - indi idman mütəxəssisləri bunu yaxşı bilirlər, - əsas amildir.

Əziz dostlar, sizi uğurlar münasibətilə bir daha təbrik edirəm. Qarşıdan Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü gəlir, Yeni il gəlir. Bu bayramlar münasibətilə də sizi təbrik edirəm, sizə cansağlığı, yeni uğurlar arzulayıram. Sağ olun.

Sonra Azərbaycanda idmanın inkişafında xidmətləri olan idmançıların və idman mütəxəssislərinin mükafatlandırılması mərasimi oldu.

Dövlətimizin başçısı ölkəmizdə idmanın inkişafında xidmətlərinə görə Natiq Bağırova, Rauf Bunyatəliyevə, Cavanşir Qurbanova və Sadıq Sadıqova Prezidentin fəxri fərmanlarını təqdim etdi.

Azərbaycanda idmanın inkişafında xüsusi xidmətlərinə və yüksək peşəkarlığına görə Nəriman Abdullayev və Rövşən Umudov “Əməkdar bədən tərbiyəsi və idman xadimi” fəxri adları ilə təltif olundular.

Prezident İlham Əliyev ölkəmizdə idmanın inkişafında xidmətlərinə görə Zərqələm Abbasovaya, İqrar Cəfərova, Fərhad Əliyevə, Musa Mamedova, Nəsimi Musayevə, Aydın Məmmədova, Rəşad Rəsulluya, Tahir Tahirova və Vüqar Verdiyevə “Tərəqqi” medallarını təqdim etdi.

Dövlətimizin başçısı 2024-cü ildə yüksək nailiyyətlər qazanmış bir qrup idmançıya və idman mütəxəssisinə - Anna Skidan, Vüqar Əzimov, Aynur Rzayeva, Sərxan Əliyev, Hidayət Heydərov, Zelim Kotsoyev, Vladimir Şulikin, Əliabbas Rzazadə, Rövşən Hacıyev, Rəna Həsənova, Könül Mikayılova, Qaşım Maqomedov, Sabir Həsənov, Vadim Kutukov, Anar Süleymanov, Elgiz Əlizadə, Şahin Xudaverdiyev, Ceyhun Hüseynov, Anar Məmmədov, İmaməddin Xəlilov və Ərkan Sağdıça yeni mənzillərin orderlərini təqdim etdi.

Azərbaycanda idmanın inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Faiq Qarayevə, Mirağa Qiyasova və Ramiz Tağıyevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü veriləcək.


2024-CÜ İLİN
İDMAN YEKUNLARI
BAKI ŞƏHƏRİ, 24 DEKABR 2024-CÜ İL

### *"AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏXRİ DİPLOMU"*

Bağırov Natiq Nadir oğlu
Bunyatəliyev Rauf Əli-Heydər oğlu
Qurbanov Cavanşir Kazım oğlu
Sadıqov Sadıq Asəf oğlu

### "TƏRƏQQİ" MEDALI İLƏ

Abbasova Zərqələm Məstan qızı
Abdullayev Vasif İslam oğlu
Cəfərov İqrar İsa oğlu
Əliyev Fərhad Vaqif oğlu
Mamedov Musa Saleh oğlu
Məmmədov Aydın Ağa-Əli oğlu
Musayev Nəsimi Hüseyn oğlu
Rəsullu Rəşad Fərhad oğlu
Tahirov Tahir Sahibcan oğlu
Verdiyev Vüqar Mürvət oğlu.

### *"ƏMƏKDAR BƏDƏN TƏRBİYƏSİ VƏ İDMAN XADİMİ"*

Abdullayev Nəriman Sadıx oğlu
Umudov Rövşən Ağahüseyn oğlu.

### *AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRDİ TƏQAÜDÜ*

Qarayev Faiq Əli oğlu
Qiyasov Mirağa Şahbudağ oğlu
Tağıyev Ramiz Cahangir oğlu.




2024-CÜ İLİN
İDMAN YEKUNLARI



düşmək elə də asan məsələ deyil. Bizim üçün sevindirici haldır ki, 16 nəfərin arasında Azərbaycanda yetişən batut gimnastı da oldu. Ölkə başçısının da vurğuladığı kimi, bizim artıq yeni idman növlərində də yaxşı nəticələrimiz var. Təbii ki, hamı istəyir, daha böyük uğurlar qazanılsın. Son Olimpiya Oyunlarında əldə etdiyimiz nəticələri Prezident İlham Əliyev də yüksək qiymətləndirdi. Əldə olunan nailiyyətlər Gənclər və İdman Nazirliyi olaraq, bizi də qane edir. Xüsusilə Hidayət Heydərovun nəticələrini vurğulamaq istəyirəm. Bir il ərzində həm Avropa, həm dünya, həm də Olimpiya çempionu oldu. Azərbaycanda başqa belə bir idmançı tanımıram ki, bir ildə 3 nüfuzlu yarışın qalibi olsun. Bu cür idmançılar digərləri üçün yaxşı nümunə olacaq. İnanırıq ki, növbəti illərdə belə idmançıların sayı artacaq.

# FƏRİD QAYIBOV:

# “ELƏ BİR ÖLKƏ TANIMIRAM Kİ, DÖVLƏT BAŞÇISI İDMANÇILARI MÜKAFATLANDIRSIN”

***Gənclər və idman naziri Fərid Qayıbovun ilin yekunları ilə bağlı jurnalistlərlə ənənəvi görüşü olub. İdman.biz xəbər verir ki, nazir media mənsublarını maraqlandıran sualları cavablandırıb.***

**- 2024-cü il Azərbaycan idmanı üçün tarixi hadisələr və uğurlarla əlamətdar oldu. İdmançılarımız həm Paris-2024 Yay Olimpiya Oyunlarında, həm də digər nüfuzlu yarışlarda uğurla çıxış etdilər. Bütün bunların fonunda, başa vurmağa hazırlaşdığımız ili Azərbaycan idmanı üçün necə dəyərləndirmək olar?**

- Dekabrın 24-də yaxşı görüşümüz oldu. Ölkə başçısı idman ictimaiyyətini bir araya topladı. Özünün də vurğuladığı kimi, bu ənənə 27 ildir davam edir. Açığı, elə bir ölkə tanımıram ki, hər ilin sonunda dövlət başçısı idmançılarla görüşüb, onları mükafatlandırsın, təltif etsin. İdmançılarımıza ən yüksək qiymət orada verildi. İlin ən önəmli yarışı Olimpiya Oyunları idi. Əvvəlki Olimpiadalarla müqayisə etsək, Parisdəki yarışda çox uğurlu nəticə qazandığımızı deyə bilərəm. Bilirsiniz ki, bütün ölkələr pandemiya yaşadılar, bizdə bu səbəbdən bəzi idmançılar karyeralarını başa vurdular. Əvəzində yeni idmançılar üzə çıxdılar. Təbii ki, onların püxtələşməyi üçün müəyyən vaxt lazımdır. Yeri gəlmişkən, Paris Olimpiadasında ilk dəfə 15 idman növündə təmsil olunduq. Onların arasında bizim üçün yeni idman növləri də var idi. Batut gimnastikasını qeyd etmək istəyirəm. Bu idman növünü ona görə vurğuladım ki, düzgün iş getsə, nəticə əldə etmək olar. Batut gimnastikası Azərbaycanda ilk dəfə 10 il bundan öncə inkişaf etdirilməyə başladı. Əvvəllər Azərbaycanı Rusiyada yetişən idmançı təmsil edirdi. Onunla yanaşı, Rusiya və Belarusdan başqa idmançılar da var idi. Onlar bizi Avropa Oyunlarında təmsil edirlər. Eyni zamanda, uşaq qruplarını inkişaf etdirməyə başladıq. Həmin qruplardan çıxan uşaq – Selcan Mahsudova düz 10 il sonra Olimpiya Oyunlarına lisenziya qazandı. Özü də Olimpiadada batut gimnastikası üçün cəmi 16 kvota ayrılır. Üstəlik, bu idman növündə ənənələri olan ölkələrə 2 yer verilir. Yəni, ora

**- Yola salmağa hazırlaşdığımız ildə təəssüfləndiyiniz, “kaş” dediyiniz nə oldu?**

- Çox çətin sualdır. Amma Olimpiya Oyunlarında təəssüfləndiyimiz anlar oldu. Bizim üçün vacib idi ki, ilk qızıl medal qazanılsın. Oyunlar vaxtı psixoloji durum çox gərgin olur. Bu il idman jurnalistlərimiz də ilk dəfə Olimpiadada iştirak etdilər. Bu, çox vacib amildir. Hər yarış hamımız üçün bir təcrübədir. Orada insanların necə həyəcan keçirdiyini, yəqin, jurnalistlər də gördülər. İlk medal əldə olunanda çox sevindik. Sonra iştahamız artmağa başladı (gülür). Doğrudan da şansımız var. Güləşçimiz Həsrət Cəfərovun da Olimpiya çempionu olmasını istəyirdik. Gənc olsa da, böyük potensiala malikdir. Amma idmanda hər şey istədiyin kimi olmur. Bir çox amillər var. Finala

çıxan boksçumuz Alfonso Dominqesdən də qızıl medal gözləyirdik. Taekvondoçumuz Qaşım Maqomedovu qeyd edərdim. Ümumiyyətlə, Azərbaycan Taekvondo Federasiyası 100 faizlik nəticə göstərdi. Bir idmançı ilə təmsil olunduğu Olimpiadada gümüş medal götürdü. Onun finalda da qalib gəlməsini istəyirdik. Təəssüf ki, zədələndi. Federasiyaların orada necə çalışdığını hamımız görürdük. Ortada iş var idi. Hamı birgə çalışırdı. Məsələn, Anna Skidan qatıldığı 4-cü Olimpiya Oyunlarında ilk dəfə final mərhələsinə çıxdı. Bədii gimnastika üzrə qrup hərəkətləri komandamız ilk dəfə iştirak etdiyi Olimpiadada 5-ci yeri tutdu. Medala çox yaxın idilər.

**- Olimpiadada medal gözlədiyiniz hansı idmançılar sizi xəyal qırıqlığına uğratdılar?**

- Onların adlarını sizə deməyəcəyəm (gülür). Çünki biz idmançılara dəstək olmalıyıq. Hansısa neqativ sözlərlə onları “sındıra” bilərik. Nəticə qazanmağı ən çox idmançı arzulayır. Biz federasiyalarla nəticələr barədə əvvəldən öz proqnozlarımızı müzakirə edirdik. Təhlillər əsasında müəyyən təxminlərimiz var idi. Bəli, daha çox şey gözlədiyimiz idmançılar var idi. Amma yenə də bu idmandır.

**- Nazir kimi iştirak etdiyiniz ilk Yay Olimpiya Oyunları sizin üçün hansı təəssüratlarla yadda qaldı?**

- İlk dəfə 2008-ci ildə Pekin Yay Olimpiya Oyunlarında olmuşam. Həmin yarış çox xoşuma gəlmişdi. Olimpiya Kəndindəki abu-hava əla idi. Orada dünyanın müxtəlif ölkələrindən olan tanınmış idmançıları görə bilmişdim. Həmin vaxt 29 yaşım var idi. Digər Olimpiadalarda da olmuşam. Amma nazir kimi ilk dəfə ötən il Pekində keçirilmiş Qış Olimpiya Oyunlarına yollanmışdım. Fərq nədən ibarətdir? Mənə görə Olimpiya Kəndində qalmaq daha maraqlıdır. Amma Paris Olimpiadasında funksioner kimi iştirak edirdim. Orada bir çox vacib görüşlərim oldu. Bütün idman dünyası orada idi. İşimiz az deyildi. Olimpiya Oyunları tarixində ilk dəfə “Azərbaycan Evi” təşkil etdik. Parisin çox yaxşı bir yerində Mədəniyyət Mərkəzimiz var. Orada hər gün bir çox federasiyaları qonaq edə bildik. Həm Azərbaycan haqqında danışdıq, ölkəmizi təbliğ etdik, həm də tədbirlərimizi keçirdik.

**- Milli komandalarda legioner idmançılarla bağlı məsələ hər zaman aktual olub. Azərbaycanı təmsil edən əcnəbi idmançılar arasında ən yüksək nəticələrdən biri Alfonso Dominqesə məxsusdur. Paris Olimpiadasında gümüş medal qazansa da, tənqid olundu. Belə fikirlər var idi ki, finalda Alfonso yox, hansısa azərbaycanlı idmançı olsaydı, mütləq çempionluğu qazanardı. Legioner idmançı məsələsi qarşıdakı nüfuzlu yarışlarda necə tənzimlənəcək?**

- Legionerlər daha çox bizim üçün yeni olan idman növlərindədir. Gənclər hansısa peşəkar idmançıya baxıb nəsə öyrənməlidirlər. Ona görə də düşünürəm ki, əcnəbi idmançı dəvət oluna bilər. Amma bir ara onların sayı çoxalmışdı. Açığı, bunu başa düşə bilmirdim. Legionerlərin sayını azaltmaq üçün federasiyalarla qarşılıqlı işləyirik. Deyə bilərəm ki, onların sayı kifayət qədər azalıb. Amma ağır çəkilərdə problemlərimiz var, idmançı yetişmir. Burada seleksiya işləri yaxşı aparılmalıdır. Təəssüflər olsun ki, mütəxəssislərimiz çatışmır. Bunun üçün müəyyən işlər görülür. Bilirsiniz ki, yaxşı mütəxəssis qısa zamanda yetişmir. İdman Akademiyasında da müəyyən dəyişikliklər etmək istəyirik. Ona görə də əvvəlcə ölkə xaricindən mütəxəssislər dəvət edirik. Çünki hər şey sürətlə inkişaf edir, sistem də fərqlidir. Yaxşı yerli mütəxəssislər yetişdirməliyik. Onların sayı çox olmalıdır ki, rəqabət artsın. Bundan sonra legioner idmançılar gətirilsə belə, bizimkilər onlardan üstün olacaq.

**- Federasiyalar milli komandalara əcnəbi idmançılar cəlb edərkən, nazirliklə məsləhətləşir, yoxsa qərarı özləri qəbul edirlər?**

- Legioner idmançı gətirmək üçün bizdən xahiş edirlər. Ancaq qaydalar, şərtlər çox sərtləşib.

**- İdmançıların inkişafı üçün onların beynəlxalq yarışlarda iştirakı mütləqdir. Həm oradakı abu-havanı hiss edirlər, həm də təcrübə toplayırlar. Federasiyaların idmançılarını beynəlxalq yarışlara göndərmək üçün kifayət qədər maddi imkanı varmı?**

- Prezident İlham Əliyev idmançılarla görüşdə dəqiqliklə dedi ki, dövlətin dəstəyi olmadan bu, mümkün deyil. Bu dəstək isə illərdir var. Nazirlik tərəfindən idmançılarımız vacib beynəlxalq yarışlara ezam olunurlar. Bəzən federasiyalar idmançıları öz hesabına da yarışlara göndərirlər. Bəzi hallarda idmançılar öz hesablarına gedirlər. Təbii ki, əsas diqqət Olimpiya idman növlərinə yönəlib. Amma çalışırıq ki, digər növləri də unutmayaq və onları da yarışlara ezam edək. Bunun üçün müvafiq büdcəmiz var. Amma elə idman növləri var ki, orada yarışlar çoxdur. İdmançılar həmin yarışlara getməlidirlər. Federasiyalar daha çox sponsor axtarırlar ki, idmançıların yarışdakı iştirakını təmin edə bilsinlər.

**- Gələn ilin fevralında İtaliyada Qış Olimpiya Oyunları olacaq. Biz adətən qış olimpiadasına iştirakçı ölkə kimi qatılırıq. Bu dəfə bizim orada iştirakımızı necə görürsünüz?**

- Qış Olimpiya Oyunlarında Azərbaycanda yetişən idmançıların çıxış etməsini istəyirik. Buna da vaxt lazımdır. 2025-ci ilin yanvarında Şahdağda dağ xizəyi üzrə Dünya Kuboku keçiriləcək. Orada artıq yerli idmançılar yetişməyə başlayıb. Bakıda ikinci ildir ki, beynəlxalq standartlara uyğun buz meydançası istifadəyə verilib. Kifayət qədər populyardır, uzun növbələr olur. Bu, kompleksin özünü saxlaması üçün də yaxşıdır. Eyni zamanda həmin kütləvilikdən idmançılar çıxır. Orada artıq körlinq üzrə məşqlər də başlayıb. Başlanğıç üçün türkiyəli

məşqçi dəvət olunub. Çünki indiki vəziyyətdə dünyanın ən yaxşı körlinq məşqçisini dəvət edə bilmərik. Gəlib kimlərə məşq keçəcək? Həvəskar hokkeyçilərdən ibarət komandamız var. Onlar artıq bir neçə yarışda iştirak edib, hətta qalib də olublar. Uşaqlar onlara baxıb həvəslənirlər. Bu idman növlərini inkişaf etdirmək üçün illər lazımdır. Həmin buz meydançasında məşq edən qızlar bu yaxınlarda Özbəkistanda fiqurlu konkisürmə üzrə yarışa qatılıblar. Bu, məni nazir kimi çox sevindirir.



**- Sizcə, özəl şirkətlərin idmana yatırım etməsi üçün nələr edilməlidir?**

- Onlara hansısa güzəştlər olmalıdır. Vergidən tam azad olunmasalar belə, müəyyən güzəştlər olmalıdır. Hazırda güzəşt var. Bunun bir az dəyişməsini istərdik. Bununla bağlı Vergilər Nazirliyi ilə mütəmadi görüşlər təşkil edirik. Təklif veririk və bunu əsaslandırmalıyıq. İstərdik ki, daha çox özəl şirkətlər idmana yönəlsinlər. Bunun üçün qanun və qaydalarda müvafiq dəyişiklər etməliyik. Ən əsas da idman haqqında qanundur. Biz bunu son iki il ərzində yazmağa başladıq. Demək olar ki, bitmək üzrədir. Biz bunu daha sona Milli Məclisə təqdim edəcəyik. Kütləvi tədbirlər təşkil etdiyimiz zaman sponsorlar gəlmək istəyirlər. Çünki insanlar çox olur. Dövlətin dəstəyindən danışdıq. Özümüz də çalışmalıyıq. Azərbaycanda idman marketinqi yaxşı deyil. Dünya və Avropa çempionatı keçirilir, ulduzlar gəlir, təəssüflər olsun ki, azarkeş görmürük. Burada daha çox insanlarla işləməliyik. Məsələn, ABŞ-da beysbol yarışlarına insanlar ailə üzvləri ilə birlikdə gəlirlər. Onları arenada 3-4 saat saxlamaq üçün müəyyən əyləncəli tədbirlər təşkil edirlər. Bunu ölkəmizdə də reallaşdırmalıyıq. Burada ən böyük misal futboldur. "Qarabağ"ın avrokubok oyunlarında Tofiq Bəhramov adına Respublika stadionu dolu olur. Lakin Ağdam klubun yerli liqadakı matçlarına azarkeş gəlmir. Onları düzgün dəvət etmirik. Bizdə də günah var. İnsanlar da dəstək olmağa hazırdırlar. Bölgədəki matçlara azarkeş gəlir. Demək ki, Bakıdakı matça da gələ bilərlər. İdman marketinqini gücləndirməliyik. Mütəxəssis yoxdursa, xaricdən çağırmalıyıq.

**- Gələn il ölkəmizdə keçiriləcək MDB Oyunlarının əsas mərkəzi Gəncə şəhəri olacaq. Hansı idman növlərinin harada olacağı dəqiqləşib?**

- MDB Oyunları ilə bağı Təşkilat Komitəsi yaradılıb. Hansı idman növlərinin harada olacağı bəllidir. Prezident İlham Əliyev ilin idman yekunları ilə bağlı tədbirdə demək olar ki, bütün regionlarda idman komplekslərinin olduğunu vurğuladı. Onların bəziləri təmir ediləcək. Bəzilərinə isə avadanlıqlar gətiriləcək. 2015-ci ildə Bakıda keçirilən Avropa Oyunları ərəfəsində Milli Gimnastika Arenası, Bakı Su İdmanı Sarayı inşa olundu. Atıcılıq Mərkəzi yenidən quruldu. Bunlar hamısı Avropa Oyunlarından qalan mirasdır. Bu gün də istifadə olunur. Dünyanın bir çox ölkələrindən idmançılar Azərbaycana təlim-məşq toplanışlarına gəlirlər. Avropa Gimnastikasının prezidenti olaraq bildirirəm ki, dünyada Milli Gimnastika Arenası kimi ikinci kompleks tanımıram. Atıcılıq üzrə dünya çempionatı təşkil edildi. Beynəlxalq federasiyanın prezidenti paytaxtımıza səfəri zamanı Bakı Atıcılıq Mərkəzindən dünyada cəmi 6-7-sinin olduğunu dedi. Bakı Su İdmanı Sarayı da çox gözəldir. Bunlar idmanın inkişafı üçün böyük yoldur. Gəncədə yeni stadion inşa olunur. MDB Oyunlarına kimi hazır olacaq. Artıq orada idman kompleksi istifadəyə verilib. Həmin kompleks böyük olimpiya komplekslərindən biridir. Yevlaxda da yeni idman kompleksi inşa etdiriləcək. MDB Oyunları təşkilatçılar üçün heç də asan olmayacaq. Çətinliklər olsa belə, öhdəsindən gələcəyimizi düşünürəm. Yarışda MDB ölkələri ilə yanaşı, dəvət olunmuş başqa ölkələr də olacaq. İştirakçıların sayı çoxdur. Qonaqlar fərqli məkanlarda məskunlaşacaqlar. Bu yarış bölgədə idmanın inkişafına kömək edəcək. Gələn il aerobika üzrə Avropa çempionatını da Gəncə şəhərində təşkil olunacaq. Beynəlxalq yarışları rayonlarda keçirmək üçün şəraitimiz, otellərimiz var. Şuşada, Qarabağda turnirlər təşkil olunub. Xankəndində üç idman tədbiri keçirilib. Bir müddət öncə badminton üzrə ölkə çempionatı reallaşdı. MDB Oyunları çərçivəsində kamandan oxatma yarışının da həmin şəhərin stadionunda təşkili planlaşdırılır.

**- Azərbaycan futbolunun hazırkı durumu barədə nə deyə bilərsiniz?**

- İstərdim ki, Azərbaycan çempionatında komanda sayı çox, rəqabət fərqli olsun. Premyer Liqada ikinci dövrə başa çatdı. Birinci yerlə ikinci pillədəki komandanın xal fərqi məni çox narahat edir. “Qarabağ” son illərin dəyişilməz çempiondur. Lakin bu kollektivlə rəqabət aparacaq komanda yoxdur. Rəqabət olarsa, Ağdam klubu da inkişaf edəcək. Bu gün “Qarabağ” avrokuboklarda uduzanda məyus oluruq, deyirik ki, niyə qalib gəlmədi? Amma gəlin xatırlayaq, əvvəlki illərdə heç ilkin mərhələni keçə bilmirdik. Bəli, indi futbolumuz yaxşı günlərini yaşamır. Bunu etiraf etmək lazımdır. Burada birgə iş olmalıdır. AFFA və ya hansısa klubları da ayrılıqda günahlandırmaq olmaz. Biz nazirlik olaraq, futbolun inkişafı üçün nə edirik? Ötən ilin əvvəllərində “Ulduz” akademiyasını yaratdıq. Bölgələrdən perspektivli uşaqları buraya cəlb edirik. Şəraitimiz var, uşaqlar Bakı kəndlərindən birində məskunlaşıblar, eyni məktəbə gedirlər və məşq edirlər. Aşağı yaş qruplarından ibarət liqalarımıza diqqət yetirsəniz, ilk sıralarda bu akademiyanın komandalarının qərarlaşdıqlarını görə bilərsiniz. Lakin bu kollektivlər beynəlxalq yarışlarda böyük hesabla uduzurlar. Nəzərə alaq ki, yeni komandalardır. Düşünürəm ki, tez-tez belə turnirlərdə oynamalıdırlar. Azərbaycanda uşaqlar üçün 3 beynəlxalq turnir təşkil etmişik. Sonuncusu Qubada reallaşdı. Əfsuslar olsun ki, Özbəkistanın 15 yaşlılardan ibarət komandası bizim klublara qalib gəldi. Artıq başa düşdük ki, özbək futbolu 15 yaşlılar arasında bizi üstələyir. Digər yarışda Belarusun U-15 komandası qalib gəldi. Amma görürük ki, yarışdan-yarışa artım hiss olunur. Uşaqlara təcrübə lazımdır. Ona görə də daimi olaraq beynəlxalq yarışlara getməlidirlər. Belədə bizdə də futbolçular yetişməyə başlayacaq. Son illər “Qarabağ”da Bədavi Hüseynov, Bəhlul Mustafazadə, Toral Bayramov, Nəriman Axundzadə və Elvin Cəfərquliyev kimi futbolçular özlərini yaxşı tərəfdən göstərirlər. Onlar 3-4 ilin içində inkişaf etdilər. Nəriman da son oyunlarda daha çox şans qazanır. Elvin isə Avropanın güclü liqalarında rahat oynaya bilər. Böyük potensialı var. Beynəlxalq təcrübə qazandıqca, inkişaf edirlər. Futbolda görüləsi işlərimiz çoxdur. Daha çox yarış keçirilməli və uşaq futboluna investisiya yatırmalıyıq. Biz öz növbəmizdə bunu etməyə başlamışıq. Eyni zamanda, infrastruktura diqqət ayrılmalı, stadionlar təmir olunmalıdır. Bir çox bölgəmizdə təmirə ehtiyacı olan arenalarımız var. Amma biz bunu tək bacara bilmərik. Bunun üçün sponsorlar olmalıdır. Tutaq ki, hansısa stadionu əsaslı təmir etdik. Orada oynayacaq komanda olmalıdır. Üstəlik, arenanın baxımı da var. Düzdür, artıq II Liqamız da var. Üç-dörd il əvvəl bu, yox idi. Müəyyən irəliləyişlər var. Təbii ki, azarkeşlər kimi, biz də yığmamızın ən azı qonşu Gürcüstan kimi nəticələr əldə etməsini istəyirik. Amma klub səviyyəsində biz onlardan üstünük. Uşaq futboluna daha çox sərmayə qoymalıyıq, milli komanda üçün səviyyəli futbolçular yetişsin. Əsas odur ki, plan olsun. Məsələn, Gənclər və İdman Nazirliyinin 2030-cu ilə qədər strategiyası var. Bütün federasiyalara da demişik, onlar da öz strategiyalarını bitirirlər. Hətta bəziləri bu prosesi başa çatdırıblar. Artıq futbolda da strategiyanı yazmağa başlayıblar. Strategiya ona görə vacibdir ki, nə istədiyimizi bilək.



**- Strategiyadan söz düşmüşkən, Los-Anceles-2028 Yay Olimpiya Oyunlarında hansı idman növlərində ilk dəfə çıxış edəcəyimizlə bağlı gözləntilər var?**

- İstərdim ki, Los-Anceles Olimpiadasında ağırlıqqaldırmanı görüm. Bizim bu idman növündə Avropa çempionu və dünya ikincisi olan Dadaş Dadaşbəyli kimi ağırlıqqaldıranımız var. Ona ümidlərimiz böyükdür. Ağırlıqqaldırma ilə yanaşı, həmçinin atçılıq idmanında da yenidən təmsil olunmağımızı istərdim.

**- Otüstü hokkey bizdə ənənəvi idman növü hesab olunur. Bu idman növünün yenidən bərpası nəzərdə tutulurmu?**

- Təəssüf ki, Otüstü Hokkey Federasiyası müəyyən problemlərə görə bağlanıb. Yeni federasiyanın açılması ilə bağlı bu gün yaxşı xəbər verə bilməyəcəyəm. Çünki irəliləyiş yoxdur. Bizdə müasir beşnövçülük və otüstü hokkey istisna olmaqla, bütün Olimpiya idman növləri inkişaf etdirilir.

# LİONEL MESSİ AZƏRBAYCANDA!




***Futbol əfsanəsi, ABŞ-nin "İnter Mayami" klubunun futbolçusu Lionel Messi və komanda yoldaşlarının Bakıda azarkeşlərlə görüşü keçirilib. Dekabrın 11-də futbol əfsanəsi və dünya ulduzları Luis Suares, Serxio Buskets və Xordi Alba Bakı Kristal Zalında fanatlarına unudulmaz anlar yaşadıb.***



Pərəstişkarların dünya futbolunun ulduzları ilə görüşündən əvvəl səhnədə "Natiq" ritm qrupunun çıxışı olub. Daha sonra dünyaşöhrətli bəstəkar və müğənni Villi Uilyam konsert proqramını təqdim edib.

Dünya çempionu, səkkiz dəfə "Qızıl top" mükafatına layiq görülən Lionel Messinin karyerasını əks etdirən filmin nümayişindən sonra isə ulduz futbolçu komanda yoldaşları - Luis Suares, Serxio Buskets və Xordi Alba ilə səhnəyə çıxıb.

Ölkəmizin uşaq futbol komandalarının təmsilçilərinə bir çox gəncin arzuladığı imkan da yaradılıb. Belə ki, gənc futbolçularımız dünyanın ən yaxşı oyunçularına top ötürərək özlərini peşəkarlarla bir oyunun iştirakçıları kimi hiss ediblər. Daha sonra futbol ulduzları gənc həmkarları və sağlamlıq imkanları məhdud uşaqlarla xatirə şəkli çəkdiriblər.

Ulduz futbolçuların imzalı topları auditoriyaya dağıtması anları isə coşqu ilə qarşılanıb. Futbol həvəskarları üçün bu idman bayramı məşhur "Morandi" qrupunun çıxışı ilə davam edib. Minlərlə fanatın qatıldığı tədbirə Bakının uşaq evlərinin sakinləri, sağlamlıq imkanları məhdud uşaqlar və şəhid övladları da dəvət olunub.

Tədbirə bilet satışından əldə olunan vəsait isə xeyriyyə məqsədinə yönəldilib.



## Lionel Messi və dostları Bakıda Heydər Əliyevin xatirəsini anıblar

Dekabrın 11-də Azərbaycana gələn futbol əfsanəsi Lionel Messi və dünya ulduzları Luis Suares, Serxio Buskets və Jordi Alba Bakıdakı Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət ediblər.

Onlar Ümummilli Liderin xatirəsini anıb, məzarı önünə əklil qoyublar. Lionel Messi və dostlarını iş adamı Adnan Əhmədzadə müşayiət edib.

## Messi və komanda yoldaşları Heydər Əliyev Mərkəzində



Bakıda səfərdə olan dünya futbolunun əfsanələrindən biri Lionel Messi və komanda yoldaşları Luis Suares, Serxio Buskets və Xordi Alba Heydər Əliyev Mərkəzində olublar.

Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərovla görüşən qonaqlar mərkəzdə təqdim olunan sərgiləri də ziyarət ediblər.

Lionel Messi və komanda yoldaşları "Azərbaycan xalçası - ilmələrin rəqsi" adlı xalça kolleksiyası, "Klassik avtomobil sərgisi" və digər ekspozisiyalarla tanış olublar.





## Lionel Messi Bakıda Qarabağ atlarını izləyib

ABŞ-nin "İnter Mayami" klubunun futbolçusu Lionel Messi komanda yoldaşları - Luis Suares, Serxio Buskets və Jordi Alba ilə birlikdə Bakıda Qarabağ atlarını izləyiblər. Qonaqlar maraqlı anlar yaşayaraq gördüklərindən məmnun qalıblar.

### Messiyə Azərbaycan xalçası hədiyyə edilib

Bakıya gəlişi münasibətilə Lionel Messi üçün unikal xalça hazırlanıb. Xalça “Azərxalça” komandası və Azərbaycanın istedadlı qadın toxucuları tərəfindən xüsusi olaraq hazırlanıb.

Messi üçün toxunan xalça Azərbaycanın xalçaçılıq ənənələrini dünyaya tanıtmaq məqsədi daşıyır.






### Lionel Messi Azərbaycana təşəkkür edib

“Azərbaycan mədəniyyəti və insanları ilə tanış oldum. Buna görə çox xoşbəxtəm”.

Bu sözləri Argentina millisinin və ABŞ-ın "İnter Mayami" klubunun futbolçusu Lionel Messi Bakı Kristal Zalında təşkil olunan tədbirdə deyib.

Futbol əfsanəsi ilk dəfədir Azərbaycanda olduğunu qeyd edib: “Bu cür isti qarşılanmaya görə Azərbaycana təşəkkür edirəm”.

# Azərbaycanda qonaq olmuş ULDUZ FUTBOLÇULAR

***“Qızıl top”un səkkiz qat qalibi ilə birlikdə vaxtilə “Barselona”da, indi isə “İnter Mayami”dəki məşhur oyundaşları Luis Suares, Serxio Buskets və Jordi Alba da Bakıya gəliblər.***

Bu futbolçulardan Buskets 2009-cu ildə ölkəmizdə olub. O, İspaniya millisinin heyətində Bakıda Azərbaycan yığmasına 6:0 hesabı ilə qalib gəldikləri yoldaşlıq görüşünün ikinci hissəsində çıxış edib. Onda Busketsin cəmi 20 yaşı vardı və millidə ikinci oyununu keçirirdi.

Ümumiyyətlə, Azərbaycan millisi və avrokuboklarda “Qarabağ”la qarşılaşmalar, həmçinin Bakıda keçirilən 2019 Avropa Liqasının finalı və AVRO-2020-nin oyunlarında iştirak üçün bir çox ulduz futbolçu ölkəmizdə olub, meydana çıxıb.

Məsələn, “Qızıl top”un beş qat qalibi Kriştiano Ronaldo Portuqaliya millisinin 2007-ci ildə “Tofiq Bəhramov”da 2:0 hesablı qələbə qazandığı matçda çıxış edib. Özü də bu onun yığmada 50-ci oyunu idi.

2018-ci il “Qızıl top”un sahibi Luka Modriç isə Xorvatiya millisi ilə 2015 (0:0) və 2019-cu illərdə (1:1) Bakıda olub.

Bəzi məşhur futbolçular isə ölkəmizə müxtəlif tədbirlərdə iştirak etmək üçün və ümumiyyətlə, şəxsi dəvətlə qonaq kimi gəliblər.

2012-ci ildə Peşəkar Futbol Liqası ilə Azərbaycan Premyer Liqasının yeni titul sponsoru arasında imzalanma mərasimin-

də 1991-ci il "Qızıl top"un sahibi fransalı Jan Pyer Papen iştirak edib.

İsveçli Zlatan İbrahimoviçin 2015-ci ildə istirahət və ov etmək məqsədi ilə Azərbaycana səfər etməsi də yada düşür.

2016-cı ildə ev sahibi şəhərlərdən biri olan Bakının AVRO-2020 üçün hazırlanan loqosunun təqdimat mərasiminə 1987-ci il "Qızıl top"un və AVRO-1988-in qalibi niderlandlı Ruud Qullit xüsusi qonaq kimi qatılıb.

2019-cu ildə Bakının Avropa Liqasının final matçına ev sahibliyi etməsi ilə əlaqədar ölkəmizdə təşkil olunan silsilə tədbirlər çərçivəsində "Bakı 2019: Ulduzlar Finalı" adlı qarşılaşma da keçirilib və həmin oyunda ulduz futbolçular Yeji Dudek, Maykl Essyen, Deku, Hamit Altıntop, Nihat Kahveçi, Andrey Arşavin, Revaz Arveladze iştirak edib.

Onlardan başqa 2001-ci il "Qızıl top"un sahibi ingiltərəli Maykl Ouen və italiyalı qapıçı Françesko Toldo Bakıya səfər edib, 2019 Avropa Liqasının finalı ərəfəsində təşkil olunmuş Azarkeş Festivalında iştirak ediblər.

2000-ci il "Qızıl top"un sahibi portuqaliyalı Luiş Fiqu rəsmi qonaq kimi AVRO-2020-nin Türkiyə - Uels oyununu Bakı Olimpiya Stadionunda canlı izləyib.






Bu il də bir çox məşhurlar ölkəmizə təşrif buyurub. 2014-cü ilin dünya çempionu Mesut Özil oktyabrda Azərbaycanda bir sıra tədbirlərdə iştirak edib.

Noyabrda COP29 ilə bağlı Bakıya gələnlərdən biri də əfsanəvi futbolçu Ronaldinyo olub. 2005-ci il "Qızıl top"un qalibinin ölkəmizə ilk dəfə səkkiz il bundan əvvəl səfər etdiyini də xatırladaq.

Türkiyə millisinin kapitanı və baş məşqçisi olmuş Fatih Terim də "Qarabağ"ın dəvəti ilə COP29 çərçivəsində futbol klublarının iqlim dəyişikliyi ilə mübarizədə birgə alyansının yaradılması ilə bağlı tədbirdə fəxri qonaq kimi iştirak edib.

***Rasim Mövsümzadə***





# BEYNƏLXALQ DƏRƏCƏLİ HAKİM XALÇA İLƏ VİDALAŞDI

*Dekabr ayının 24-ü Azərbaycanın tanınmış idman mütəxəssisi, beynəlxalq dərəcəli güləş hakimi Hicran Şərifov hakimlik karyerasını başa vurub. 25 il hakimlik edən Hicran müəllim son olaraq Azərbaycan çempionatında 55 kiloqram çəki dərəcəsində Elmir Əliyevlə Rəşad Məmmədov arasında baş tutan final görüşünü idarə edib. Təcrübəli referi qarşılaşmadan sonra güləş ənənələrinə uyğun olaraq, fitini və qolçaqlarını xalça üzərinə qoyub və karyerasını başa vurduğunu rəsmən elan edib. Milli Olimpiya Komitəsi və Azərbaycan Güləş Federasiyası tərəfindən H.Şərifova xatirə hədiyyəsi təqdim olunub.*





Xatırladaq ki, Hicran Şərifov "Pekin-2008", "London-2012" və "Rio-2016" Yay Olimpiya Oyunlarında, Avropa Oyunlarında, İslam Həmrəyliyi Oyunlarında, dəfələrlə dünya və Avropa çempionatlarında, eləcə də digər mühüm beynəlxalq yarışlarda ədaləti qoruyub. Azərbaycan güləş tarixində 3 Olimpiadada iştirak etmiş yeganə hakim ünvanına sahib H.Şərifov "London-2012"nin ən ədalətli referisi qismində "Qızıl fit" mükafatına layiq görülüb. O, "Şöhrət" və "Olimpiya" ordeni, "Azərbaycan Respublikası Prezidentinin Fəxri Diplomu", "Tərəqqi" medalı, "Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi", "Əməkdar məşqçi" fəxri adları ilə təltif olunub.

Onu da qeyd edək ki, Hicran müəllim idmanla yanaşı həm də elmi işlə məşğul olur. Azərbaycan İdman Akademiyasının müəllimi olan Hicran Şərifov pedaqogika üzrə fəlsəfə doktorudur.

*Tədbirdən sonra Hicran müəllim AZƏRTAC-ın suallarını cavablandırıb. Həmin müsahibəni diqqətinizə təqdim edirik:*





**- Ötən gün 25 illik hakimlik karyeranızı bitirdiniz. Təəssüratlarınızı bilmək maraqlı olardı...**

- Əlbəttə ki, mən bu 25 ili sevinclə xatırlayacağam. Çünki bu illər ərzində xalqıma, Prezident İlham Əliyevə və Azərbaycan idmanına xidmət etmişəm. Ədalətli hakimlik etmək üçün çalışırdım. Çünki mən Azərbaycanı təmsil edirəm. Hər dəfə yüksək kateqoriya əldə edəndə sevincimin həddi hüdudu olmurdu. Sanki dünya və ya Olimpiya çempionu olurdum. Həmişə öz üzərimdə işləmişəm. Hər zaman ən yaxşısı olmağa çalışırdım.

**- Yaxşı güləş hakimi olmaq üçün ilk növbədə nələrə diqqət yetirmək lazımdır?**

- Qərəzli hakim olmağı heç vaxt arzulamamışam. Mənim üçün ilk növbədə ədalətli olmaqdır. Heç vaxt yalnız özümü düşünməmişəm. Beynəlxalq aləmdə də belədir. Referi təkcə özünü düşünməməlidir. Məşqlərdən də heç vaxt yayınmırdım. Formada olmaq üçün yediyim qidalara fikir verirdim. Bir sözlə, mən hakimlik üçün yaşayırdım. Bunları dünyada sayılıb-seçilən hakim olmaq üçün edirdim. Şükürlər olsun ki, bu mənə qismət oldu. Bir neçə dəfə yarışların ən yaxşı hakimi tituluna sahib çıxdım. Ölkə üzrə də ən yaxşısı oldum. Nəhayət, "London-2012" Yay Olimpiya Oyunlarında ən yaxşı hakim seçildim.




**- "London-2012" Yay Olimpiya Oyunlarında ən yaxşı hakim seçildiyinizi vurğuladınız. Həmin anları necə xatırlayırsınız?**

- Mən həmin an elə hiss etdim ki, sanki qızıl medal qazandım. Bu, olduqca əlçatmaz, böyük əziyyət və zəhmət hesabına əldə olunan uğurdur. Hər kəs məni təbrik etmişdi. Təqdimat zamanı Azərbaycan Güləş Federasiyasının vitse-prezidenti Namiq Əliyev və Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə də orada idilər. Hətta Ç.Hüseynzadə Prezident İlham Əliyevə zəng edərək, artıq ilk qızıl medalımızı qazandığımızı demişdi. Sevincimdən yerə-göyə sığmırdım. Həmin an dövlətimizin başçısı yarışların başlayıb-başlamadığını soruşdu. Çingiz Hüseynzadə isə cavabında dedi ki, yarışlardan öncə hakimlərin təqdimat mərasimi oldu və Hicran Şərifov ən yaxşı seçildi. Prezident bu münasibətlə məni təbrik etdi və “Şöhrət” ordeni ilə mükafatlandırdı. Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban Əliyevaya həmişə məni diqqətdə saxlayıblar, qayğılarını əsirgəməyiblər. Mən də ildən-ilə daha artığını etmişəm. Bu 25 ildə bütün tələblərə uyğun keyfiyyətli hakim olmağa çalışmışam. Fikirləşirdim ki, bir nömrə olmalıyam. Şükürlər olsun ki, Allah bunu mənə qismət etdi. Artıq bundan sonrakı fəaliyyətimdə idmanın nəzəriyyəsinə xidmət edəcəyəm. Azərbaycan İdman Akademiyasının baş müəllimiyəm. Bu sahədə ali elmi dərəcəm var. Tələbələrimizi hazırlayıram. Əvvəl sadəcə güləşə xidmət edirdimsə, indi bütün idman növlərinə xidmət edirəm. Nə qədər ki, özümdə güc hiss edirəm, ömrümü idmana, dövlətimə, xalqıma, təhsilə həsr edəcəyəm.

**- Neçə müddətdir Azərbaycan İdman Akademiyasında işləyirsiniz?**

- Artıq 3 ildir burada işləyirəm.

**- "Qızıl fit" mükafatı verilərkən, hansı kriteriyalar nəzərə alınır?**

- Ümumiyyətlə, bütün yarışlardan öncə hakimlər üçün kiçik bir seminar keçirilir. "Qızıl fit"i mənə yalnız bir epizoda görə verməmişdilər. Güləş aləmində belə deyil. Bunu əldə edə bilmək üçün ilk növbədə, dünya və Avropa çempionatlarında, lisenziya xarakterli turnirlərdə özünü doğrultmalısan. Baxırlar ki, sən inkişaf edirsən və qüsursuz hakimlik nümayiş etdirirsən. Beləliklə də, sonda nəticə çıxarılır. Təbii ki, burada yalnız bir nəfərin qərarı nəzərə alınmır. Bu, bizim istəyimizlə əldə olunan bir şey də deyil. Bu məsələyə birbaşa Dünya Güləş Birliyi nəzarət edir. Hansı hakim bu titula daha çox layiqdirsə, onu seçirlər. Buna layiq olmaq üçün səhvsiz, işində peşəkar və qətiyyətli olmalısan. Ən yaxşı hakim məhz bu kateqoriyalara əsasən seçilir.

**- İdarə etdiyiniz görüşlər arasında sizin üçün ən unudulmazı hansı idi?**

- İranda keçirilmiş beynəlxalq turnirdə 3-cü kateqoriyaya sahib gənc, istedadlı hakim idim. Artıq qərar verilmişdi ki, ağır görüşlər zamanı Azərbaycandan məni hakim təyin etsinlər. Orada amerikalı və iranlı Olimpiya çempionları üz-üzə gəlirdilər. Bu idmançıların final qarşılaşması mənim üçün unudulmaz olmuşdu.

**- Karyeranız ərzində məyusedici məqam hansı olub?**

- Bir az çətin sual oldu. Mən bütün görüşləri izləyirdim. Keçmiş sərbəst güləşçimiz Namiq Sevdimov "Pekin-2008" Yay Olimpiya Oyunlarında 5-ci oldu. Əslində, o, qızıl medala layiq idi. Sadəcə, özündən zəif rəqibə uduzaraq, bürünc medal şansını itirdi. Finala çıxsaydı, amerikalı idmançını məğlub edəcəkdi. Bu məqam məni məyus edir. Lakin hakim kimi üzüldüyüm hadisə olmayıb.

**- Yarışlardan xatirə saxladığınız əşyalar varmı?**

- Deməli, "London-2012" Yay Olimpiya Oyunlarında mənə təqdim olunan "Qızıl fit"i tarix Milli Azərbaycan Tarix Muzeyinə bağışladım. Hətta həmin fitlə bir görüş də idarə etmişdim. Bir də İngiltərə paytaxtında təşkil olunmuş yarışdan öncə verilən digər fiti isə Azərbaycanın istedadlı fotoqraflarından birinə vermişəm.







Geyim isə hazırda özümdə qalır. Tarix Muzeyindən formamı istəsələr də, hələlik bu barədə konkret qərara gəlməmişəm.

**- Özünüz üçün ideal hesab etdiyiniz hakimlər olub?**

- Türkiyədən İbrahim Cicioğlunu çox bəyənirdim. Yerlilərdən isə mərhum Oqtay Hüseynovu qeyd edərdim. Onun verdiyi qərarlar heç vaxt müzakirəyə çıxarılmırdı.

- Azərbaycan güləş hakimliyinin hazırkı durumu barədə nə deyə bilərsiniz?

- Hazırda Azərbaycan Güləş Federasiyası bununla bağlı əlindən gələni edir. Artıq yeni gənc hakimlər yetişdirilir.




# "PREZİDENT KUBOKU" UĞRUNDA MARAFON

***İlin idman paytaxtı olan Quba şəhəri növbəti dəfə idman azarkeşlərinin diqqət mərkəzində olub. Belə ki, "İdman paytaxtı" dekabr ayının 22-də Azərbaycanda ilk dəfə tam məsafəyə marafon yarışına ev sahibliyi edib.***




"Prezident Kuboku" uğrunda keçirilən marafon Gənclər və İdman Nazirliyi, Azərbaycan Atletika Federasiyası və "Zəfər" Qaçış Klubu ilə birgə təşkil olunub. Açılış mərasimində çıxış edən Azərbaycan Atletika Federasiyasının prezidenti Cavid Qurbanov "Prezident Kuboku"nun əhəmiyyətindən danışaraq bu cür kütləvi yarışların davamlı olaraq təşkil ediləcəyini bildirib.

Quba Rayon İcra Hakimiyyətinin başçısı İlqar Mahmudov ilk tam məsafəyə marafonun məhz Qubada keçirilməsinin rayon






üçün əlamətdar hadisə olduğunu qeyd edib. Quba-Xaçmaz Regional Gənclər və İdman İdarəsinin rəisi vəzifəsini icra edən Qumru Məmmədova marafon iştirakçılarına onları gözləyən ağır mübarizədə uğurlar arzulayıb.

Marafonda yerli idmançılarla yanaşı, Türkiyə, Rusiya, Gürcüstan, Çin və Belçika təmsilçilərinin də daxil olduğu 132 atlet mübarizə aparıb. Quba Olimpiya İdman Kompleksində start götürən və qaçış məsafəsi 42 km 195 metr olan marafonda iştirakçılar Heydər Əliyev prospekti üzrə hərəkət ediblər. Yekunda kişilərin mübarizəsində Türkiyə






təmsilçisi Ahmed Alkanoğlu 02:40:37 göstərici ilə "Prezident kuboku"nun qalibi olub. Elman Abışov 2-ci, Ağa Əliyev 3-cü yeri tutub.

Qadınların mübarizəsində Leyla Abdinova 03:28:48 nəticə ilə fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Yuliya Belkova finişə 2-ci, Natalya Şiyanova isə 3-cü gəlib. 40, 50 və 60 yaşdan yuxarı iştirakçılar kateqoriyasında müvafiq olaraq kişilərdə Qin Ru, Yadigar Hüseynov və Tapdıq Dadaşov, qadınlarda isə Aynur Kazımova və Gülpərə Əliyeva qalib adını qazanıblar.

***Vidadi Baxşiyev***






1333
1174
1173
POLIS


AZE
Gənclər və
İdman Nazirliyi
zəfər
3




# AZƏRBAYCAN AĞIRLIQQALDIRMA FEDERASİYASI BƏHREYNDƏ

***Azərbaycan Ağırlıqqaldırma Federasiyasının (AAF) Bəhreyndə səfərdə olan nümayəndə heyəti bir sıra görüşlər keçirib. Azərbaycan Respublikasının gənclər və idman nazirinin müavini Mariana Vasileva, Azərbaycan Ağırlıqqaldırma Federasiyasının prezidenti Kamran Nəbizadə və vitse-prezidenti Firdovsi Umudov, Beynəlxalq Ağırlıqqaldırma Federasiyasının prezidenti Məhəmməd Calud, həmçinin I vitse-prezidenti Ursula Papandrea, Avropa Ağırlıqqaldırma Federasiyasının prezidenti Antonio Konflitti və Bəhreyn Ağırlıqqaldırma Federasiyasının prezidenti Ebrahim Eshaqla bir araya gəliblər.***



Qarşılıqlı fikir mübadiləsi şəraitində keçən görüşlərdə Azərbaycan, ağırlıqqaldırma idmanında tarixi ilkə imza atıb. Dekabrın 4-də Beynəlxalq Ağırlıqqaldırma Federasiyasının (IWF) Bəhreyndə keçirilmiş növbəti konqresində, Azərbaycanda Avropa Ağırlıqqaldırma Akademiyasının qurulmasına namizədlik təqdimatı böyük maraqla qarşılanıb. Tədbirdə təqdimatı qurumun təmsilçisi Turab Teymurov edib.

Təqdimat zamanı konqres iştirakçılarına ölkəmizin tarixi, bu günü, turizm potensialı, geniş infrastruktur imkanları, beynəlxalq tədbirlərin təşkili üzrə böyük təcrübəsi, idman nailiyyətləri, həmçinin Azərbaycan Prezidenti İlham Əliyevin idmana dövlət səviyyəsində diqqət və qayğı göstərdiyi barədə məlumat verilib, xüsusi videoçarx nümayiş etdirilib.

Beynəlxalq Ağırlıqqaldırma Federasiyasının prezidenti Məhəmməd Calud və digər rəsmilər Azərbaycanda idmana göstərilən diqqəti xüsusi fərqləndirib və Akademiyanın fəaliyyətində uğurlar arzulayıb.




Avropa Ağırlıqqaldırma Akademiyasında beynəlxalq məşqçilik kursları, lisenziyalaşdırma üzrə seminar və mühazirələr, həmçinin müvafiq hakimlik məşğələləri, idmançılar üçün dərslər, kateqoriya və ixtisas təlimləri keçiriləcək. Akademiyadakı tədrisdə Avropa və ehtiyac olacağı təqdirdə yaxın region ölkələrinin nümayəndələrinin iştirakı təmin ediləcək. Akademiyanın Bakıdakı ASK Arenada yerləşməsi nəzərdə tutulub.

Qeyd edək ki, dünyada cəmi 5 belə Ağırlıqqaldırma Akademiyası qurulacaq. Azərbaycanla yanaşı bu hüquqa Asiyada Çin, Afrikada Misir, Amerikada Kuba, Okeaniyada da isə Samoa sahib olub.

Bununla yanaşı, konqresdə Beynəlxalq Ağırlıqqaldırma Federasiyasının ayrı-ayrı komitələrinin hesabatları dinlənilib, kommersiya tərəfdaşlarının təqdimatı baş tutub. IWF-in konstitusiyasına təklif edilən dəyişikliklər ümumi səsvermə yolu ilə qəbul edilib.





Firdovsi Umudov:

# "AKADEMİYANIN AZƏRBAYCANDA QURULMASI ÖLKƏ İDMANI ÜÇÜN BÖYÜK TƏCRÜBƏ OLACAQ"

***"Avropa Ağırlıqqaldırma Akademiyasının Azərbaycanda qurulması ölkə idmanı üçün böyük təcrübə olacaq. Bu işi dövlətimizin adına layiq səviyyədə icra etməyə çalışacağıq.***

Bu gün idman kompleks yanaşma tələb edir. Məşqləri yüksək səviyyədə keçirmək, idmançı yetişdirmək və birinci olmaq medalın görünən tərəfidir. Bu uğurun təməlində gərgin iş və beynəlxalq səviyyədə qurulan əlaqələr dayanır. Çünki qitə miqyaslı akademiyaya ev sahibliyi etmək üçün yüksək etimad qazanmalısan. Bu işi sizə həvalə edən insanlar əmin olmalıdırlar ki, vəzifənin öhdəsindən layiqincə gələ biləcəksiniz. Beynəlxalq Ağırlıqqaldırma Federasiyasının rəhbərliyi Azərbaycanda idmana dövlət səviyyəsində diqqətin olduğunu gördü. Prezident İlham Əliyevin hər idman növü ilə ayrılıqda maraqlanması və göstərdiyi həssas münasibət onlarda əminlik yaratdı.

Avropada cəmi bir akademiya olacaq ki, o da Bakıda qurulacaq. Qitənin 50-dən çox ölkəsinin diqqəti bizə yönələcək. Burada seminarlar, məşqçilik kursları, təlim-məşqlər təşkil olunacaq. Akademiyanın fəaliyyət planını tam olaraq ifadə etmək çox zaman alar. Təkcə onu deyim ki, burada çoxşaxəli iş prosesindən söhbət gedir.

Son illərdə ağırlıqqaldırma idmanında qazanılan nəticələr göz qabağındadır. İndiki dövrdə hansısa ölkəni aşkar favorit adlandırmaq olmur. Siz idmançını körpücük üzərində bir neçə dəqiqə görürsünüz. Onun uğur qazanması üçün cəmi 6 yanaşması olur. Ağırlıq mərkəzindən ani yayınma uğursuz cəhd ilə nəticələnir. Təsəvvür edin ki, bu akademiya Azərbaycan və Avropa üçün ağırlıq mərkəzi olacaq. Buradakı bütün təşkilati yanaş-






malarımız uğurlu olmalıdır. Bütün ölkələrin ən təcrübəli mütəxəssisləri Bakıya gələcəklər. Bu, idmanımıza həm nəzəri, həm də təcrübə baxımından zənginlik qatacaq. Potensialımızı tam üzə çıxara biləcəyik.

Gənclər və idman nazirinin müavini Mariana Vasileva, Azərbaycan Ağırlıqqaldırma Federasiyasının prezidenti Kamran Nəbizadə və mən Bəhreyndə bir sıra görüşlərdə iştirak etdik. Bilirsiniz ki, bir müddət öncə həm Beynəlxalq Ağırlıqqaldırma Federasiyasının prezidenti Məhəmməd Calud, həm də Avropa Ağırlıqqaldırma Federasiyasının rəhbəri Antonio Konflitti Azərbaycanda səfərdə olmuşdu. Demək istəyirəm ki, yüksək səviyyədə təmaslarımız öncədən qurulmuşdu. Bu dəfə əsasən akademiyanın fəaliyyət istiqamətlərindən danışdıq. Onlar üçün bu idman növünün coğrafiyasının genişlənməsi prioritet məsələlərdəndir. Düşünürəm ki, növbəti il bir çox yeniliklərlə yadda qalacağıq".



# HİTOŞİ KASUYADAN BAKIDA SEMİNAR

***Azərbaycanda səfərdə olan karate ustası, 9-cu dan qara kəmər sahibi Hitoşi Kasuyanın rəhbərliyi ilə keçirilən XXXII Ümumrespublika seminarının açılış mərasimi keçirilib.***



Dövlət Himni səsləndiriləndən sonra Azərbaycanın suverenliyi və torpaqları uğrunda həyatlarını qurban vermiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərasimdə çıxış edən Azərbaycan Karate Federasiyasının (AKF) vitse-prezidenti, 8-ci dan qara kəmər sahibi Füzuli Musayev seminar iştirakçılarını AKF-nin rəhbərliyi və İdarə Heyəti adından salamlayıb, onlara uğurlar arzu edib.

O bildirib ki, təcrübəli məşqçilər və məşhur karateçilərlə yanaşı, gənc idmançıların da iştirak etdiyi Ümumrespublika seminarının təşkilində əsas məqsəd ölkəmizdə karate üzrə idmançı və məşqçilərin texnika səviyyəsini daha da yüksəltmək, gənclərin sağlam həyat tərzinə



# KARATE

marağını artırmaq, onların asudə vaxtının səmərəli təşkilinə kömək etməkdir.

Dünya Şotokan Karate-do Federasiyasının baş təlimatçısı, 9-cu dan qara kəmər sahibi Hitoşi Kasuya karateçilərimizi salamlayaraq, onlara uğurlar arzu edib. Ölkəmizə sayca 25-ci səfərinin olduğunu bildirən Kasuya məmnunluğunu ifadə edib. O, seminar müddətində müasir karatedə olan dəyişikliklər, konkret fəndlər üzərində praktik bilikləri nümayiş etdirəcəyini söyləyib.



Daha sonra AKF rəhbərliyi adından Kasuyaya Azərbaycanda karatenin inkişafında göstərdiyi əvəzsiz xidmətlərə görə xatirə hədiyyəsi təqdim olunub.



Tədbirdə Gənclər və İdman Nazirliyinin Qeyri-olimpiya növləri üzrə sektor müdiri Fəqan Səfərov, AKF-nin vitse-prezidentləri Füzuli Musayev, Rəhman Hətəmov, Allahverdi Rüstəmov, baş katib Qabil Sayadov, Hüquq və İntizam Komitəsinin sədri Həmdiyyə Məmmədov, Texniki və Məşqçilər Komitəsinin sədri Əhməd Əfəndi, federasiya prezidentinin köməkçisi Vüsal Abdullazadə və digər şəxslər iştirak ediblər.

Qeyd edək ki, XXXII Ümumrespublika texniki seminarına 250-dən çox idmançı və məşqçi qatılıb.











# “TƏMİZ QƏLƏBƏ: OLİMPİYA İLİNƏ YENİDƏN BAXIŞ”

***Dekabr ayının 16-da Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) təşkilatçılığı, Gənclər və İdman Nazirliyinin dəstəyi ilə Bakıda “Təmiz qələbə: Olimpiya ilinə yenidən baxış” adlı beynəlxalq konfrans keçirilib.***

Tədbir Azərbaycan Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Konfransın antidopinq sahəsində təcrübələrin paylaşılması baxımından əhəmiyyətindən bəhs edən gənclər və idman nazirinin müavini Mariana Vasileva bütün idmançılara təmiz qələbə arzulayıb.

Konfransa onlayn formatda qoşulan Ümumdünya Antidopinq Agentliyinin (WADA) prezidenti Vitold Banka Azərbaycanın olduqca önəmli tədbirə ev sahibliyi etdiyini bildirib. O, bu yığıncağın əsas hədəfinin Azərbaycanla yanaşı, digər



# AMADA




ölkələrdə də dopinqə qarşı mübarizənin inkişafına töhfə vermək olduğunu söyləyib. AMADA ilə əməkdaşlığın faydalı olduğunu deyən WADA rəhbəri birgə fəaliyyətlə yeni uğurlara nail olacaqlarına inam ifadə edib. V.Banka konfransın gələn il ilk dəfə Asiya ölkəsində - Cənubi Koreyada keçiriləcəyini də diqqətə çatdırıb.

AMADA-nın icraçı direktoru Təhminə Tağı-zadə isə 2024-cü ili AMADA üçün uğurlu hesab edib. O, il ərzində mindən çox dopinq testinin aparıldığını, 50-dən çox seminar və vebinarın təşkil olunduğunu və 2 mindən çox iştirakçının antidopinqlə bağlı məlumatlandırıldığını vurğulayıb. Azərbaycanın gələcək illərdə də beynəlxalq tədbirlərə ev sahibliyi edəcəyini qeyd edib.

Sessiyalar üzrə davam edən konfransda "Paris-2024" Yay Olimpiya Oyunlarının yekunlarına nəzər salınıb, dopinqin aşkarlanmasında yenilikçi tədqiqatlar və gələcək çağırışlar, nəzarət prosesində dəqiqlik, Olimpiya antidopinq səylərində əldə olunan nailiyyətlər, antidopinqdə təhsil və elmin öncüllüyü kimi mövzular müzakirə olunub.




Konfrans çərçivəsində AMADA və "Gilavar" Foto Klubunun birgə təşkil etdiyi "Olimpiya ruhu: Qələbə və məğlubiyyətdən kənar" adlı beynəlxalq müsabiqənin qalib fotolarından ibarət sərgi nümayiş olunub.




Tədbirin məqsədi antidopinq sahəsindəki təcrübə və biliklərin artırılması, elmi araşdırmaların dəstəklənməsi, həmçinin idmançılar və idman ictimaiyyəti arasında dopinqə qarşı mübarizənin və maarifləndirmənin gücləndirilməsindən ibarətdir.

Beynəlxalq konfransa informasiya dəstəyini Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) verib.




# "KİŞİ SÖZÜ"NÜN "NİYAZ"I

*Əməkdar məşqçi, Əməkdar incəsənət xadimi Cahangir Mehdiyevin İdman.biz-ə müsahibəsi.*

**- Cahangir müəllim, indi də idmanla məşğul olursunuzmu?**

- Əlbəttə. İdmanda əldə etdiyim uğurları hazırda bədən tərbiyəsi ilə qorumağa çalışıram.

***- İdman və incəsənət. İki fərqli sahəni paralel aparmaq sizin üçün çətin olmayıb?***

- Xeyr, əksinə. Mən uşaqlıqdan idmanla məşğul oluram. Özü də bir yox, bir neçə idman növü ilə. Belə desək, idmandan sənətə gəlmişəm. 1998-ci ildə Əməkdar məşqçi, 2000-ci ildə isə incəsənət xadimi adına layiq görülmüşəm. Hazırda idmanla incəsənətin sərhədlərinə dair kitab yazıram. Ümumiyyətlə, bir məqamı qeyd edim ki, hansı sahədə çalışmağından asılı olmayaraq, idmanla məşğul olmaq insana qazandırır.

**- Məşqçi kimi xüsusi metodlarınız var?**

- Dünya və Avropa çempionu Akif Alıyevin məşqçisi olmuşam. Bilirsiniz, ağırlıqqaldırmada texnikadan düzgün istifadə etmək çox vacibdir. Ştanqı qaldıran zaman bir balaca disbalans oldusa, ciddi problem yaranır. Burada fiziki güclə yanaşı, psixoloji hazırlıq da önəmlidir. Dopinqə, yaxud əzələ gücünə etibar etmək olmaz. Akifin də texnikası yaxşı idi, mən ona əsasən psixoloji məqamları başa salırdım.

**- Dopinq məsələsinə toxundunuz. Ağırlıqqaldırmada dopinq qalmaqallarını tez-tez görürük. Sizcə, bu idman növündə sözügedən problemin aktuallığı nədən irəli gəlir?**

- Bəzən məqsəd, ona gedən yolla tərs mütənasib olur. Uğur qazanmaq üçün həm ağıl, həm də səbr lazımdır. Dopinq insan həyatı üçün beladır. Müvəqqəti qələbələr naminə atılan addımlar insanın sonrakı həyatında ciddi problemlər yaradır. Mən burdan idmançılarımıza səslənib demək istəyirəm ki, əgər sağlam yaşamaq istəyirlərsə, dopinqdən uzaq durun. Uğur yalnız bu gün qazanılan medal, yaxud da pulla ölçülməməlidir. Sağlamlıq özü də bir qazancdır.

Moskvada oxuduğum dövrdə dünya çempionları Vasili Alekseyev, Yuri Vlasovla birgə Olimpiya kompleksində məşq eləmişəm. Onlar hazırlıq zamanı zala bircə məni buraxırdılar. Vlasov hələ o vaxt mənə deyirdi ki, siz heç bir kimyəvi dərman qəbul etmirsiniz, buna görə də çox yaşayacaqsınız. Pis-yaxşı mən yetmiş üç yaşına çatmışam, ancaq onlar bu yaşa gəlib çata biləcəklərmi?

**- Cahangir müəllim, bu gün də sizi müəllifi olduğunuz "Kişi sözü" filmindəki Niyaz obrazı ilə xatırlayanlar var. Bu obraz necə yaranmışdı?**

- Əslində, mən Niyazın idmançı olmağını istəmirdim. Bu rola Rafael Dadaşovu çəkmək fikrim vardı. Ssenarini müəllimim, məşhur rejissor Georgi Danieliya göstərəndə dedi ki, bunları qoy kənara, sən idmançısan, özünü çək. O, hələ tələbə vaxtından mənim idmanla məşğul olduğumu bilirdi. Tələbə vaxtı yaşadığım yataqxananın idman zalının açarını mənə vermişdilər. Çünki məndən başqa heç kim idmana meyl etmirdi. Hamısı kino çəkməklə, içki ilə, yaxud da bu kimi şeylərlə məşğul idi. Gündüzlər dərsə gedirdim, axşamlar idman zalına. Tələbə yoldaşlarım buna görə mənə dəli kimi baxırdılar.

Əlqərəz, əvvəlcə istəməsəm də, bir qədər düşünəndən sonra anladım ki, müəllimimin sözlərində həqiqət var. Həm də "Niyaz"a qədər Azərbaycan kinosunda belə bir idmançı obraz olmamışdı. Bundan çıxış edərək riskə getdim. Hər halda eşitdiyim sözlərə, aldığım məktublara əsasən deyə bilərəm ki, obraz uğurlu alınıb.

Bu obrazdan təsirlənib idmana üz tutanlar da olub. İstər bu gün idmanda olanlardan, istərsə də, digər sahədə çalışanlardan bunu dəfələrlə eşitmişəm. Elə olub ki, bazarda qiymət soruşanda beş manata olan məhsulu dörd manata deyiblər

ki, sən Niyaz kimi bir obraz yaratmısan. Hərdən yolda getdiyim yerdə kimsə yaxınlaşıb soruşur ki, Solmazla Niyazın axırı necə oldu?

**- Həqiqətən, onların sonu necə oldu?**

- Bilirsiniz, ehtiras başqadır, məhəbbət başqa, eşq isə tamam başqa. Ehtiras gözlərini kor edə bilər, məhəbbət səni ailənə bağlayır. Eşq isə Füzulinin təsvirindəki kimi müqəddəs bir anlayışdır. Bunları ayırmaq çox vacibdir.

Niyazı filmin sonunda üç yol ayrıcında oturan görürük. Yolun biri kəndə gedir, biri şəhərə, biri də dağa. Bayaq dediyim söhbətə əsaslanıb belə bir simvolik mənzərə yaratmışam. Niyaz bilmir Solmazla evlənsin, şəhərə gedib anasının dediyi kimi iki bacıdan birini alsın, yoxsa qeyri-müəyyən olan dağ yoluna üz tutsun. Mən bu obrazı təxminən iyirmi beş yaşlı gənc kimi vermişəm, o hələ eşqlə məhəbbətin fərqini başa düşmür.

**- Yəqin ki, "Niyaz"ın qız fanatları da az olmayıb.**

- Mən iyirmi yaşımda artıq evli idim, o rola çəkiləndə isə otuz beş yaşım vardı. Əlbəttə, mənim də fanatlarım olub, mən də kiminsə fanatı olmuşam. Ancaq həyatda elə müqəddəs dəyərlər var ki, onun üstündən keçmək olmaz.

**- İdmançıların çoxunun özündənrazı olduğunu deyirlər. Elə Niyaz kimi. Sizcə, bu, nədən qaynaqlanır?**

- Bilirsiniz, əsl idmançılar əsl kişi adamlardır. Hərdən görürəm ki, bəzi cavanlar özlərini kimyəvi dərmanlarla şişirdir, yerişlərini dəyişir ki, qızların xoşuna gəlsinlər. İdman eləyib






özünü göstərməklə deyil. Ümumiyyətlə, elələri heç yaxşı idmançı da olmur. İdmançı özünü meydanda göstərməlidir, camaatın yanında yox. Bu sahədə ikili standartlar çox azdır. Təbii ki, idmanda da istisnalar olur, hakimləri ələ almaq, düzgün olmayan qərarlar və s. Ancaq söhbət mübarizədən gedirsə, hər şey açıq-aşkar göz qabağında olur. Məsələn, digər sahələrdə dil bir söz deyir, əməl başqa şey. İdmanda isə elə şey yoxdur. Bir döşəkdir, bir də sən. Sonda bir şeyi də deyim. Mənim bir ştanqam var. Üzərində bodibildinqin əsasını qoyan amerikalı mütəxəssis Vaderin adı yazılıb. Həmin ştanqdan Azərbaycanda heç kimdə yoxdur, özü də xromdandır. Onu özümlə qəbirə apara bilmərəm, layiqli bir adama bağışlamaq istəyirəm. Ancaq bilmirəm, kimə bağışlayım.

***Aytac Sahəd***

# Azərbaycan ağırlıqqaldıranı beynəlxalq turnirinin qalibi olub

***Dekabrın 28-i Azərbaycan ağırlıqqaldıranı İsa Rüstəmov (73 kiloqram) Gürcüstanın paytaxtı Tbilisi şəhərində keçirilən "Kakhi Cup 2024" beynəlxalq turnirinin qalibi olub.***

Azərbaycan Ağırlıqqaldırma Federasiyasından (AAF) verilən məlumata görə, o, birdən qaldırma hərəkətində 148 kiloqram, təkanla qaldırma hərəkətində isə 181 kiloqram ağırlığı başı üzərinə qaldırıb. İdmançı toplam çəkidə 329 kiloqram (148+181) nəticə ilə yarışı birinci pillədə başa vurub.




İ. Rüstəmov uğurlu çıxışı ilə bağlı AAF-ın rəsmi saytına açıqlama verib: "Bildiyiniz kimi dünya çempionatından yeni qayıtmışıq. İstirahət üçün ümumiyyətlə vaxtımız olmadı. Federasiya rəhbərliyi bu yarışda iştirakıma hər cür şərait yaratdı. Bütün yanaşmaları uğurla icra edərək, ili qızıl medalla başa vurdum. Bir neçə gün əvvəl baş vermiş ağır təyyarə qəzası hamımızı sarsıtdı. Qələbəmi qəhrəman təyyarə ekipajına və qəzada həlak olmuş sərnişinlərin əziz xatirəsinə həsr edirəm".



Qeyd edək ki, "Kakhi Cup 2024" beynəlxalq turniri çərçivəsində qonşu ölkəyə səfər etmiş Azərbaycan Ağırlıqqaldırma Federasiyasının vitse-prezidenti Firdovsi Umudov, Gürcüstan Ağırlıqqaldırma Federasiyasının prezidenti, 3 qat Olimpiya çempionu Kaxi Kaxiaşviliyə AAF adından xatirə hədiyyəsini təqdim edib.

# Azərbaycanlı keçmiş atlet Türkiyə millisinin baş məşqçisi təyin olunub

***Azərbaycan əsilli keçmiş idmançı Ramil Quliyev Türkiyənin atletika üzrə gənclərdən ibarət millisinin baş məşqçisi təyin olunub.***

Bu barədə 34 yaşlı keçmiş atletin özü məlumat verib. R.Quliyev Türkiyə Atletika Federasiyasının bu vəzifəni ona həvalə etdiyini bildirib. Lakin müqavilənin detalları hələlik bəlli deyil.

Titullu idmançı ötən ay peşəkar karyerasını başa vurub. Qeyd edək ki, Ramil Quliyev Türkiyə millisinin heyətində dünya və Avropa çempionu olub.



# Azərbaycan boksçularının bu il beynəlxalq yarışlarda qazandığı medalların sayı açıqlanıb



***Azərbaycan boksçuları 2024-cü ildə 160 medal qazanıblar. Bu barədə Azərbaycan Boks Federasiyasının prezidenti Sahil Babayev kişilər arasında ölkə çempionatının bağlanış mərasimi zamanı məlumat verib.***

O, ötən illə müqayisədə builki medal sayının daha çox olduğunu bildirib: "Mükafatçılar arasında kiçik yaşlı uşaqların olması müsbət məqamdır. Bu il bizim üçün uğurlu oldu. Sumqayıtda, Lənkəranda boks mərkəzləri inşa edildi. Gəncə şəhərində isə bu istiqamətdə işlər gedir. Prezident İlham Əliyev hər zaman ölkə idmanına böyük dəstək verir. Dövlətimizin başçısı idmançıların rifahını yaxşılaşdırmaq üçün əlindən gələni edir".

S.Babayevin sözlərinə görə, Azərbaycanın beynəlxalq dərəcəli boks hakimlərinin sayı 8-dən 21-ə yüksəlib. Federasiya prezidenti sonda Azərbaycan çempionatında ilk dəfə olaraq 41 klubun iştirak etdiyini diqqətə çatdırıb.

Qeyd edək ki, kişilər arasında Azərbaycan çempionatına bu gün yekun vurulacaq. Qadın boksçuların Azərbaycan çempionatı isə artıq başa çatıb. İki çəki dərəcəsində medalçılar bəlli olub. Həmçinin 5 çəkidə Boks Federasiyasının seçmə turnirinin qalibləri müəyyənləşib.

# Zöhrə Ağamirova məşqçiliyə başlayır






***İdmançı karyerasını yenicə başa vuran azərbaycanlı gimnast Zöhrə Ağamirova məşqçiliyə başlayır. O, "Ocaq Sport" klubunda məşqçi statusunda ilk addımlarını atacaq. Klub artıq Ağamirovanın onlarda bədii gimnastları çalışdıracağını açıqlayıb.***

O, yanvarın 6-dan 11-dək həm Heydər Əliyev adına İdman-Konsert Kompleksində, həm də Bakı Olimpiya Kompleksində ilk məşqlərini keçirəcək.

Qeyd edək ki, Ağamirova iki dəfə olimpiadada çıxış edib, topla hərəkətdə Avropa çempionatının bürünc medalını qazanıb, İslam Həmrəyliyi Oyunlarının ikiqat qalibi və dəfələrlə Universiadanın mükafatçısı olub.

# Azərbaycan üzgüçüləri beynəlxalq yarışda 22 medal qazanıblar







***Azərbaycan üzgüçüləri 2024-cü ili uğurla başa vurublar.***

Azərbaycan Üzgüçülük Federasiyasından verilən məlumata görə, milli komanda Estoniyanın Tartu şəhərində keçirilən Açıq Estoniya Qış çempionatına qatılıblar və çox yüksək nəticələr əldə ediblər. 15 idmançı ilə beynəlxalq turnirdə çıxış edən yığma ümumilikdə 22 medal qazanıb.

Azərbaycanla yanaşı, Estoniya, Latviya, Litva, Ukrayna, Finladiyadadan ümumilikdə 35 klubdan 285 idmançının mübarizə apardığı beynəlxalq turnirdə üzgüçülərimiz Vətənə 7 qızıl, 13 gümüş və 2 bürünc medalla dönüblər. İdmançılardan Süleyman İsmayılzadə (3 qızıl, 2 gümüş medal), Oqtay Hüseynov (2 qızıl, 2 gümüş medal), Ramil Vəlizadə (1 qızıl, 2 gümüş, 1 bürünc medal), Əbdürrəhman Rüstəmov (1 qızıl, 1 gümüş medal), Fatimə Alkərəmova (2 gümüş, 1 bürünc medal), Səid Həmidov (2 gümüş medal), Rəşad Alquliyev və Məryəm Cavadova (hər ikisi 1 gümüş ) medallar qazanıblar.

Süleyman İsmayılzadə isə 1500 metr məsafədə sərbəst üsulda 1-ci yerlə yanaşı, həm də Estoniya rekordunu da yeniləyib.

# Fatih Terim Səudiyyə Ərəbistanı klubunun baş məşqçisi olub



***Türkiyəli tanınmış futbol mütəxəssisi Fatih Terim yenidən işinin başına qayıdıb.***

Səudiyyə Ərəbistanının “Əl-Şəbab” klubu 71 yaşlı təcrübəli mütəxəssisi baş məşqçi postuna gətirib. Klubun rəsmi səhifəsində bununla bağlı video paylaşılıb və “Salam, İmperator” yazılıb.

Qeyd edək ki, Fatih Terim daha çox “Qalatasaray” və Türkiyə millisindəki işi ilə tanınır. O, son olaraq Yunanıstanın “Panatinaikos” komandasında işləyib.

# Maqnus Karlsen evlənir



***Norveç mətbuatı əfsanəvi şahmatçının toyunun olacağı barədə məlumat yayıb. “VG Sport” nəşri şahmat üzrə keçmiş dünya çempionu Karlsen və sevgilisi Ella Viktoriya Melounun gələn həftəsonu evlənəcəklərini yazıb.***

Cütlük toyunu rahatlıqla etmək üçün mərasimin vaxtı və yerini açıqlamamaq qərarına gəlib. Onların münasibətləri 2024-cü ilin aprelində ictimaiyyətə məlum olub. Ella Maqnusdan səkkiz yaş kiçikdir, atası amerikalı, anası isə norveçlidir. O, uzun müddət iki ölkədə yaşayıb, lakin Oslonu doğma şəhəri hesab edir.

Qeyd edək ki, bir neçə gün əvvəl Karlsen blits üzrə dünya çempionatında qələbəni rusiyalı Yan Nepomnyaşi ilə bölüşüb. O, rapid üzrə dünya çempionatında isə geyim qaydalarını pozduğuna görə diskvalifikasiya olunmuşdu.

# FILTREX

## Suyunuz şirin gəlsin




Hər növ su təmizləmə sistemləri :

-Əks osmos sistemləri
-Yumuşaldıcı avadanlıqlar
-Mexaniki təmizləmə filtrləri
-Ultrafiltrasiya
-Sənaye və magistral filtrləri
-Kafe və restoranlar üçün filtrlər
-Hovuzların tikintisi və qulluğu

www.filtrex.az info@filtrex.az +994 50 224 61 04

barlı




Ziya Bünyadov 2096
Bakı, Azərbaycan
info@barli.az

+99450
+99455
+99470
749 22 22

www.barli.az


ნატახტარი
NATAKHTARI
GEORGIAN LEMONADE
GÜRCÜSTANDAN
TƏRAVƏTLƏNDİRİCİ
NATAXTARİ!

AAF GROUP consulting



BİZNESİNİZİN DAHA UĞURLU OLMASI ÜÇÜN
PEŞƏKAR KOMANDAMIZLA SİZİN ÜÇÜN ÇALIŞIRIQ.

# İŞİNİZİ PEŞƏKARLARA ETİBAR EDİN!

**Hörmətli Sahibkarlar və Şirkət Rəhbərləri!**
**Sizə aşağıda qeyd olunan xidmətləri təklif edirik:**

1. Mühasibat uçotunun qurulması.
2. Kadr uçotunun qurulması.
3. Vergi məsələlərinin həlli.
4. Bəyannamələrin, hesabatların hazırlanması (Vergi,DSMF, Statistika, Gömrük, Maliyyə).
5. Qaimələrin, hesab -fakturaların uçotu.
6. Hüquqi şəxslərin qeydiyyatı, dəyişdirilməsi və ləğvi (ASC,QSC,MMC,QHT).
7. Gömrük rəsmiləşdirilməsi və broker xidməti.
8. Asan imza.
9. Möhür və Ştampların sifarişi.
10. Miqrasiya.
11. 1C Proqramının quraşdırılması.

aafgroupcounsulting@gmail.com | +99455 454 07 77 | 8 noyabr pr, Amay biznes mərkəzi

Bioloji Təbabət
Klinikası






Göyçay Bioloji
Təbabət Klinikası



Masallı Bioloji
Təbabət Klinikası



Sumqayıt Bioloji
Təbabət Klinikası

# BİOLOJİ TƏBABƏT KLİNİKASI

(012) 430 89 89
(050) 430 89 89
bioloji.tebabet
biolojitebabetklinikasi

btk.az
info@btk.az
Bakı şəhəri, 3 mkr., S.C. Pişəvəri küç 110
M.Əcəmi m.st. yaxınlığı

# MONARCH PREMIUM RESIDENT

**ALANYA / KARGICAKTA SİZLER İÇİN ÖZEL OLARAK İNŞAA EDİLMİŞTİR.**












Monarch Premium Resident, İtalyan mimarisinden ilham alarak tasarlanmış, içi ve dışıyla gerçekten dikkat çekici bir proje olup Kargıcak'ın en kaliteli ve prestijli lüks konut projesidir. Bu muazzam daireler, alışveriş ve yemek merkezlerine yakın, denize yürüme mesafesinde yer almakta olup aynı zamanda bütün dairelerimiz deniz manzarasına sahiptir. Monarch Premium Resident, yaşamınıza değer katacak bir lüks deneyim sunmaktadır. Sizi bu benzersiz konut projesini keşfetmeye davet ediyoruz!

İnşaatı tamamlanan dairelerimiz Antalya / Alanya - Kargıcak bölgesindedir.
Dairelerimizin tamamı deniz manzaralıdır.
3+1 Doublex Daireler 450.000 €'dan, 2+1 Doublex Daireler 460.000 €'dan ve 1+1 Geniş Daireler 250.000 €'dan başlayan fiyatlarla...

İletişim için
Whatsapp Hattı:
+90 555 170 90 03

Adres : Kargıcak, Maklinistler Sk.
No:3, 07400
Alanya / Antalya